| Hərəkət | Yerinə yetirən |
|---|---|
| Premium kart sahibi uçuşdan 4 saaq qabaq Visa Concierge xidmətinə müraciət edib öncədən sifariş edir və aşağıdakı məlumatları təqdim edir:<br><br>1) Sərnişinin adı və soyadı<br>2) Reysin tarixi, vaxtı və nömrəsi<br>3) Sərnişinin əlaqə nömrəsi<br>4) Sifariş verərkən İstifadəçinin Visa Platinum / Platinum Business / Signature / Infinite kartının sahibi kimi "Visa-dan Fastline" aksiyasının iştirakçısı olduğunu qeyd etmək lazımdır. | Kart sahibi yaxud müvəkkil şəxs |
| Hava limanının Agenti sifarişi aldıqdan sonra İstifadəçiyə Terminalın hansı girişinə yaxınlaşmalı olduğunu bildirir. Hava limanının Agenti əlində lövhə ilə istifadəçini Terminalın lazımi girişində qarşılayır. Sərnişin hava limanının Əməkdaşı ilə birlikdə Terminalın girişində yerləşən Salam Service masasına yaxınlaşır. Salam Service masasının yanında İstifadəçiyə onun Visa ödəniş kartının təsdiq edilməsi, mümkün pulsuz keçidlərin mövcudluğunun yoxlanılması üçün Təşkilatçının proqram-aparat kompleksi təklif olunur. Ödəniş kartı təsdiq olunmadıqda, İstifadəçiyə yerində ödəniş etmək yaxud reysə standart qeydiyyat prosedurasından keçmək təklif olunur. Ödəniş kartı təsdiq olunduqda, İstifadəçiyə portye xidmətləri təklif olunur. Portye xidmətləri qeydiyyat masasına qədər göstərilir, daha sonra bu xidmət əlavə ödənilir. Daha sonra Hava limanının Əməkdaşı Sərnişini qeydiyyat masasına qədər ötürür və növbədənkənar qeydiyyatdan keçirir. Zərurət yarandıqda gömrük bəyannaməsinin doldurulmasına köməklik göstərilir. Aparılan daxili yoxlamalardan sonra Sərnişini ümumi minik gözləmə zalına müşayiət edirlər. Minik elan olunduqdan sonra Hava limanının Əməkdaşı Sərnişini müvafiq Geytə qədər müşayiət edir. Daha sonra Sərnişin teleskopik trapla hava gəmisinin bortuna gedir. | Hava limanının Əməkdaşı |
| Hava limanının Əməkdaşı kartı əvvəlcədən hazırlanmış xüsusi Pos-terminala yaxınlaşdırır.<br>Uğurlu yoxlamadan sonra Sərnişinə Salam Gold xidmətindən pulsuz istifadə etmək təklif olunur.<br>Uğursuz yoxlama zamanı Sərnişinə ödəniş etmək yaxud reysə standart qeydiyyat prosedurasından keçmək təklif olunur. | Hava limanının Əməkdaşı (masanın yanında) |


Check-In 1-20
Check-In 21-40
International Arrival Lobby
Security Check
Security Check
EXIT
Zone A Enterance
Zone B Enterance
Burada Salam Service masası yerləşir

GERİ DÖNÜŞ

<table>
<tr><th>Hərəkət</th><th>Yerinə yetirən</th></tr>
<tr><td>Premium kart sahibi geri dönüşdən 4 saaq qabaq Visa Concierge xidmətinə müraciət edib öncədən sifariş edir və aşağıdakı məlumatları təqdim edir:<br><br>1) Sərnişinin adı və soyadı<br>2) Reysin tarixi, vaxtı və nömrəsi<br>3) Sərnişinin əlaqə nömrəsi<br>4) Sifariş verərkən İstifadəçinin Visa Platinum / Platinum Business / Signature / Infinite kartının sahibi kimi “Visadan Fastline” aksiyasının iştirakçısı olduğunu qeyd etmək lazımdır.</td><td>Kart sahibi yaxud müvəkkil şəxs</td></tr>
<tr><td>Hava gəmisinin (HG) bortunu tərk etdikdən sonra sərnişin teleskopik trapla hərəkət etməyə başlayır birbaşa sərnişinlərin geri dönüş zonasına aparan dəhlizə keçərək, ikinci mərtəbədə 1-ci Terminalın geri dönüş zonasına daxil olur. İkinci mərtəbədə, dəhlizlə geri dönüş zonasının kəsişməsində agentimiz əlində lövhə ilə (sərnişinin adı və soyadı) Sərnişini qarşılayır (HG ilə agentin qarşılama nöqtəsi arasında məsafə 50 metrdir).<br>Aşağıda qeyd olunan fotoşəkillərdə Sərnişini 1-ci Terminalın geri dönüş zonasına aparan dəhlizlə hərəkət əks olunub.<br><br><br><br><br>Fotoşəkildə Sərnişinin Hava limanının əməkdaşı ilə görüş nöqtəsi əks olunub:</td><td>Hava limanının Əməkdaşı</td></tr>
</table>

| | |
|---|---|
| <br><br>Görüşdükdən sonra agent Sərnişindən pasportunu təklif etməsini xahiş edir, pasport məlumatlarının mövcud sifarişə uyğun olub-olmadığını yoxlayır və Sərnişini sərhəd zonasının qarşısında yerləşən xüsusi masaya tərəf müşayiət edir, burada Pos-terminalın köməyi ilə ödəniş kartında pulsuz keçidin olub-olmadığını yoxlayır.<br>Ödəniş kartı təsdiqlənmədiyi halda Sərnişinə ödəniş etmək (ödəniş bütün proseduralardan keçdikdən sonra kassada həyata keçirilir) və ya standart qeydiyyat prosedurasından keçmək təklif olunur.<br>Ödəniş kartı təsdiqləndiyi təqdirdə, Sərnişin agentin müşayiəti ilə ayrıca masalarda növbədənkənar qaydada uçuşdan sonrakı rəsmiyyətlərdən (pasport və sərhəd nəzarəti) keçir<br>Zərurət yarandıqda gömrük bəyannaməsinin doldurulmasına köməklik göstərilir.<br>Aparılan daxili yoxlamalardan sonra baqajı almaq üçün Sərnişini ümumi zala müşayiət edirlər. Sərnişin öz baqajını müstəqil şəkildə aldıqdan sonra Hava limanının Əməkdaşı Sərnişini geri dönüş zalından çıxışa qədər müşayiət edir və ona uğurlar arzulayır | |
| Hava limanının Əməkdaşı kartı əvvəlcədən hazırlanmış xüsusi Pos-terminala yaxınlaşdırır.<br>Uğurlu yoxlamadan sonra Sərnişinə Salam Gold Light xidmətindən pulsuz istifadə etmək təklif olunur.<br>Uğursuz yoxlama zamanı Sərnişinə kassada ödəniş etmək yaxud reysə standart qeydiyyat prosedurasından keçmək təklif olunur. | Hava limanının Əməkdaşı |

GERİ DÖNÜŞ




Sərnişinlərin 1-ci Terminalda qarşılanması 8 zonada (sərnişinlərin qarşılanması üçün 8 nöqtədə) həyata keçirilir:

- İki zonada (Arrival 1 & Arrival 2) sərnişinlər 2-ci mərtəbədə 1-ci Terminalın geri dönüş zonasında eskalatorun yuxarı hissəsinin qarşısında qarşılanır. Həmin zonada terminala avtobusla gətirilən sərnişinlər qarşılanır.

- Qalan 6 zonada hava gəmisi ilə gələn, teleskopik trapla keçən sərnişinlər qarşılanır. Hava limanının konstruksiyasını nəzərə alaraq (bir qarşılama zonasına 2 teleskopik trap daxildir) 6 qarşılama zonası mövcuddur.